

> “Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 avqust 2025-ci il №53 (2962) https://mod.gov.az Qiyməti 30 qəpik

*Təlim*

## Yüksək döyüş ruhu, bacarıq, uğur



Plana uyğun olaraq döyüş atışlı təlimdə iştirak edən bölmələrin fəaliyyətini izlədik. Ümumqoşun Təlim Mərkəzində piyada, mühəndis, tank və başqa bölüklər şərti olaraq döyüş düzülüşünü təşkil ediblər. Onlar əvvəlcədən yerinə yetirəcəkləri döyüş tapşırıqları barədə məlumat alıblar. Manqa, taqım, bölük müdafiədə dayaq məntəqələri qurub növbəti əmri gözləyirlər. Piyada bölmələri hərəkətə keçməzdən əvvəl artilleriya bölmələri düşmənin vacib hədəflərini sıradan çıxarmalıdırlar. Bunun üçün artilleriyaçılar müəyyən edilmiş ərazidə mövqe tuturlar.

Çox uzaqda olmayan məsafədən top atəşi səsi eşidilir. Artıq məsələ bəllidir. Şərti düşmən mövqelərinin dərinliyində olan əsas hərbi obyektlərə atılan mərmilər hədəfə dəqiq düşür. Mərminin düşdüyü yerdən əvvəlcə alov qalxır və anidən sönür, qara tüstü ağır-ağır göyə qalxır, seyrəlir və əriyib yox olur. Mərminin düşdüyü yer artıq bəllidir. Zabit Rauf Qənbərov üçün də top heyətlərinin nəticələri maraqlıdır. O deyir ki, bütün heyətlər qarşılarına qoyulmuş döyüş tapşırıqlarını uğurla icra etməyə çalışırlar. Çünki onların məqsədi döyüş şəraitində tapşırığı uğurla yerinə yetirməkdir. Bu, həm də təməl vəzifələrdən biridir.

Leytenant Vüqar Hüseynov indiki Heydər Əliyev adına Hərbi İnstitutu "Yerüstü artilleriya" ixtisası üzrə bitirib. Gənc zabit olmasına baxmayaraq işini peşəkarlıqla yerinə yetirir. Həm hərbi təhsil aldığı illərdə, həm də zabit kimi xidmətə başladığı qısa müddətdə mənimsədiyi biliklərdən və qazandığı təcrübələrdən yararlana bilib. O, bu dəfə komandiri olduğu heyətlərlə təlimə çıxıb. Şəxsi heyətin bilik və bacarıqlarına da yaxşı bələddir. Çünki Vüqar tədris dövründə tabeliyində olan əsgərlərin hazırlığına ciddi önəm verib. Tez-tez heyət üzvlərinə ixtisas üzrə bilik və bacarıqları aşılayıb. İndi isə qarşısına qoyulan istənilən nəticəni əldə edə bilir.

(Ardı 2-ci səhifədə)

## ƏÜO-da buraxılış mərasimi keçirilib

Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) növbəti "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edənlər məzunlara Vətənə və Hərbi Anda sadiq olmağı, hərbçi şərəfini hər zaman uca tutmağı, bilik və bacarıqlarını daim inkişaf etdirməyi tövsiyə edib, xidməti fəaliyyətlərində uğurlar arzulayıblar.

Məzunlar kurs müddətində qazandıqları bilik və praktiki vərdişlərdən faydalanmaqla qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirəcəklərinə, Vətən torpaqlarını layiqincə qoruyacaqlarına söz veriblər.

Hərbi qulluqçulara sertifikatlar təqdim olunduqdan sonra kurs birincisi tərəfindən yaş kötüyünə rəmzi emblem vurulub.

Sonda hərbi orkestrin müşayiəti ilə şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.



## Ana dilin varlığındı, Azərbaycan əsgəri!




Hər tarixi gün xalqın, dövlətçiliyin tarixinin yaddaşıdır. Tarixdə yaşadılanların yaddaşlarda da yaşadılması xalqa, dövlətə, dövlətçiliyə sədaqət deməkdir. Ən qədim tarixlər də belə qorunub, müasir tarixlər də belə qorunmaqdadır. Azıx mağarasının varlığını min illərlə gizlədən tarix indi onun qədimliyinin işığına sığınır. O tarixin işığında xalqın tarixi aydınlığıyla görünməkdədir. Dili də, adətənənələri də, min il əvvəllərlə səsləşən dövlətçiliyi də...

Dil tarixi hadisədir. Dilin yaranması, formalaşması, inkişafı həm də xalqın qədimliyinin tarixi sənədidir. Dilimiz qədimdir, xalqımızın xalq kimi formalaşması tarixi də onun kimi...

(Ardı 4-cü səhifədə)

## Haradan başlanır Vətən…

Vətən mənim kimliyim, mənim varlığım, mənəviyyatım… Vətən mənim ana laylam, ilk sevgim, ilk addımım, ilk çiçəyim, ilk şeirimdir. Xəlil Rza Ulutürkün "Vətən məndən başlanır" adlı poemasında vurğuladığı kimi Vətən hər kəsin qəlbində, daxili dünyasında, duyğularında, həsrətində, yaddaşındadır. Vətən mənim üçün ilk kitabım, öyrəndiyim ilk hərfim, oynadığım yal-yamac, yollar, izlər, küçəmiz, həyətimizin gül qoxusu deməkdir. Vətən insanın dövləti, mənsubiyyəti, böyüyüb boya-başa çatdığı torpaqdır. Havasına məftun olduğum, çayları həzin nəğmə çalan, təbiəti könlünü oxşayan, özünü hər daşına, hər çiçəyinə aid elədiyin, ata-ananı qucağında uyudan, övladlarının pöhrələndiyi ana yurdun, doğma ocağındır.

Xatirimdədir, İkinci Dünya müharibəsi mövzusunda çəkilmiş məşhur bir sovet filminə ("Qılınc və qalxan") yazılan mahnı bu sözlərlə başlayırdı: "Haradan başlanır Vətən?" O zaman məktəbli idik, əsrarəngiz çalarları ilə ovsunlayan, açılan hər səhərləri bizlərə çox şeylər vəd edən dünya uşaqlığın pəncərəsindən sadə və anlaşılan idi. Sualın cavabı da saf və adi idi: Vətən öz-özümə zümzümə elədiyim ilk mahnımdan, yazı lövhəsi qarşısında dayanıb fəxrlə səsləndirdiyim şeirimdən, qədəm qoyduğum məktəbimin sinif otağından, oynadığım küçəmizdən, qaçıb hər kəsdən gizləndiyim, ömrümün ən xoşbəxt günlərini keçirdiyim baxçamızdan, öz dünyam üçün gizləndiyim otağımdan başlanırdı.

Məktəb illəri arxada qaldı, uşaqlığımızın son zəngi əsil həyatın başlanğıcına səsləyirdi. Qarşıda bizi nəhayətsiz yollar, yollar yoracaq ömür gözləyirdi, bu ömrün sevinci də, kədəri də, keşməkeşli mərhələləri, sərt döngələri də olacaqdı. Biz bu həyatı ulularımızın ruhuna sədaqətlə, milli-mənəvi dəyərlərimizi yaşada-yaşada yaşayacaqdıq. Tələbəliyin sevincini dadmaq mənim də qismətimə yazıldı. Canım qədər sevdiyim Vətənimdən, rayonumdan uzaqda təhsil almalı oldum. Həyatım dəyişdi - dünyam dəyişdi. Fərqli mədəniyyət, fərqli milli-mənəvi dəyərlər, yad mentalitet… Başqa dövlət deməyə ixtiyarımız yox idi, çünki 15 respublikadan ibarət böyük dövlətin fərdləri idik, eyni pasport daşıyırdıq…

(Ardı 6-cı səhifədə)

## MMU-nun stendi DİM sərgisində böyük maraqla izlənilib

Abituriyentlərə ixtisas seçimində dəstək göstərmək məqsədilə Dövlət İmtahan Mərkəzinin elektron imtahanlar korpusunda keçirilən ali təhsil müəssisələrinin sərgisində Milli Müdafiə Universitetinin (MMU) də stendi yer alıb.



Müdafiə Nazirliyi xəbər verir ki, sərgidə MMU-nun nümayəndələri ilə birbaşa ünsiyyət quran ziyarətçilərə ali təhsil müəssisəsində mövcud ixtisaslar, tədris proqramları, maddi-texniki baza, güzəştlər, aylıq müavinətlər və digər məsələlərlə bağlı məlumatlar verilərək bukletlər paylanılıb, həmçinin maraq doğuran suallar cavablandırılıb.

MMU-nun təqdim etdiyi stend qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.



# Yüksək döyüş ruhu, bacarıq, uğur



(Əvvəli 1-ci səhifədə)

Top komandiri, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elməddin Ləzgiyev 6 ildir Vətənə xidmət edir. O, İkinci Qarabağ müharibəsi iştirakçısıdır. Elməddin müddətli həqiqi hərbi xidmətdə olarkən top heyətinin üzvü olub, topla bağlı ilkin və dolğun biliklər əldə edib. Tərxis olunduqdan sonra yenidən hərbi xidmətə qayıtmaq qərarına gəlib. O, hərbi xidmətin son yaş həddinə qədər ordu sıralarında xidmət edəcəyini bildirib. Onun komandiri olduğu heyət üzvləri də üzərlərinə düşən döyüş tapşırığını layiqincə yerinə yetiriblər. Çünki onların fərdi və heyət olaraq hazırlığında Elməddinin xidməti böyükdür.

Əsgər Canel Quliyev bir ildən artıqdır ki, müddətli həqiqi hərbi xidmətdədir.

Əslən Ağcabədi rayonunun Avşar kəndindən olan əsgər Quliyev tuşlayıcı vəzifəsində xidmət edir. Topla bağlı mükəmməl biliklərə yiyələnib. Heyət üzvləri arasında daha çox xidmət edən əsgər olduğu üçün həm taktiki, həm atəş, həm də başqa bilikləri mükəmməl mənimsəyib.

Heyət üzvlərindən Xalid Rəsizadə, Rüstəm Heydərov, Teymur Quliyev də xidmətə gəldikləri ilk gündən topla bağlı bilik və bacarıqlara yiyələnməyə başlayıblar. Leytenant Vüqar Hüseynov deyir ki, onun başlıca məqsədlərindən biri heyət üzvlərinə topun taktiki-texniki xüsusiyyətlərini öyrətməkdir. Əgər hərbi qulluqçu daşıdığı silah haqqında mükəmməl biliklərə malikdirsə, silahdan istifadə qaydalarını da rahat öyrənəcək.

Müddətli həqiqi hərbi qulluqçular ölkəmizin müxtəlif bölgələrindəndirlər. Onlar burada bir-birilərini tanıyıblar. Həm də onların məqsədi, amalı Vətənə ləyaqətlə xidmət etməkdir. Əsgərlərin davranışı, çöhrələrindəki təbəssümü deyir ki, onlar həm də mehribandırlar. Təlimdə olduğu kimi, həyatda da bir-birilərinə qarşı diqqətcildirlər. Canel onların arasında həm xidmətinə görə, həm də yaşına görə böyükdür. O, həmişə əsgər yoldaşlarına bilmədiklərini öyrədir, onlara çətin məqamlarda bir böyük qardaş kimi kömək edir, yol göstərir.

Əsgərlər arasında olan səmimi münasibət həm də onların döyüş hazırlığına təsir edir. Döyüş atışlı təlimə cəlb olunan heyət üzvlərinin atışı yüksək səviyyədə yerinə yetirmə-



lərində onların arasındakı xoş rəftar, səmimi münasibətlər də mühüm rol oynayır. Leytenant Vüqar Hüseynovun sözlərinə görə, heyət üzvləri arasında yaranmış xoş ünsiyyət onların döyüş hazırlığına və təlimdə əldə etdikləri yüksək nəticələrə də təsir göstərir.

Heyət üzvləri verilən tapşırıqları yüksək səviyyədə icra etdikləri üçün razı görünürdülər. Əsgərlərin tapşırığı necə icra etməsi hər birimiz üçün maraq doğururdu. Əldə edilən yüksək nəticə isə hər birimizə xoş ovqat bəxş etdi.

Hamı hərbi xidmətinin keyfiyyətindən, əldə etdikləri uğurlu nəticələrindən danışdı. Qazanılan uğurlu nəticə fərdin deyil, heyətin, kollektivin göstəricisidir. Top heyətinə bir daha uğurlar diləyib onlardan ayrıldıq.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

## Sədaqət andı - gənc zabitin peşəsinə və Vətənə bağlılığı

Hər bir zəfərin görünməyən tərəfini - səngərdə susan, postda ayıq qalan, gecəni gündüzə qatan, təlimdə tər tökən igid oğullar yazır. Onlar haqqında çox vaxt yalnız uğurlarından sonra danışılır. Amma Vətənin keşiyində duran hərbi qulluqçular üçün hər gün bir zəfərdir. Düşmənin qarşısından bir addım geri çəkilməmək, dövlətin gücünü bir baxışda nümayiş etdirmək, bir əmrlə bir neçə həyatın məsuliyyətini daşımaq olduqca məsuliyyətlidir. Bu ağır, lakin şərəfli yükü çiyinlərində daşıyanlardan biri də leytenant Nihat Farid oğlu Səfərlidir.

2001-ci il fevralın 1-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Saltaq kəndində dünyaya gələn Nihat hələ uşaqlıq illərində hərb ruhu ilə böyüyürdü. Ailəsində vətənpərvərlik - hiss yox, həm də həyat tərzi idi. Bu səbəbdən də hərbi forma onun üçün geyimdən əlavə, həyat amalı oldu.

İlk addımını Heydər Əliyev adına Hərbi Liseydə atan Nihat 2015-2018-ci illərdə bu təməl məktəbində zəngin bilik və mənəvi dəyərlərlə silahlanıb. Daha sonra 2018-2022-ci illərdə indiki Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alıb. Bu illər onun üçün yalnız taktiki biliklərin qazanıldığı dövr deyildi. Burada o, gələcək zabit peşəsinin məsuliyyətini, əsgərə rəhbərlik etməyin mənəvi güc tələb etdiyini dərk edirdi.

Təhsili bununla yekunlaşmadı - 2022-2023-cü illərdə Təlim və Tədris Mərkəzində ixtisasartırma kurslarında iştirak etdi, daha sonra isə 2023-cü ilin iyul-sentyabr aylarında Dağ Komando təlimlərini müvəffəqiyyətlə başa vurdu. Fiziki və döyüş hazırlığı baxımından bu təlimlər onu real döyüş şəraitinə tam adaptasiya etdi, komandirlik bacarıqlarını möhkəmləndirdi.



Leytenant Nihat Səfərli 2023-cü ildə keçirilən antiterror əməliyyatının fəal iştirakçısı olub. Xüsusilə Ağdərə istiqamətindəki əməliyyatlarda göstərdiyi cəsarəti ilə seçilən gənc zabit, taqım komandiri kimi əsgərlərə həm nümunə, həm də dayaq olub. Döyüş anlarında onun rəhbərliyində olan şəxsi heyət yüksək nəticələr göstərib, qarşıya qoyulan tapşırıqları inamla icra edib. Onun xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilib. Taktiki hazırlığının, psixoloji dözümlülüyünün və komandir məsuliyyətinə görə Nihat Səfərli "Şücaətə görə" medalı ilə təltif olunub.

Nihatın Vətənə bağlılığı bunlarla məhdudlaşmır. Onun ailəsində də hərb ənənəsi yaşadılır. Qardaşı Orçun Səfərli də Vətən müharibəsi iştirakçısıdır. O, Füzuli, Qubadlı və Şuşa uğrunda gedən döyüşlərdə iştirak etmiş, "Şuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Bu ailədə hər iki oğul öz xidmətləri ilə Azərbaycan tarixində silinməz izlər buraxıblar.

Leytenant Nihat Səfərlinin sadə, lakin dərin mənalı sözləri onun daxili aləmini əks etdirir: "Zabit olmaq üçün yalnız təhsil kifayət etmir. İnsan öz daxilində Vətənə sədaqət, əsgərə mərhəmət və qərar anında qətiyyət hisslərini daşımalıdır. Hər gün forma geyinərkən təkcə özümü deyil, xalqımı, ailəmi və torpaqlarımızı təmsil etdiyimi unutmuram".

Zabit üçün ən böyük mükafat təkcə orden-medallarla yanaşı, həm də rəhbərlik etdiyi əsgərin ona güvənidir. Nihat Səfərli bu etimadı hərbi xidmətin hər anında doğrultmağa çalışır. Onun komandirliyi altında xidmət edən əsgərlər arasında nizam-intizam, qarşılıqlı hörmət və döyüş hazırlığı daim ön plandadır.

Vətənini sevən, əsgərinə dayaq olan, məsuliyyətdən qaçmayan və daim öyrənən zabitlər bu gün Azərbaycan Ordusunun sütunlarıdır. Leytenant Nihat Səfərli həmin sütunlardan biridir. Onun timsalında Azərbaycan gənclərinin necə fədakar, bilikli və vətənpərvər olduğunu görürük.

Zaman gələcək, bu gün xidmət edən gənc zabitlərin adı tarix kitablarında, hərbi təlimatlarda örnək kimi olacaq. Bu gün isə onların ən böyük işi Vətəni qorumaq, sülhü təmin etmək və gələcəyə güvən yaratmaqdır. Çünki Vətəni qorumaq silahla bərabər, vicdanla, ruhla və əsgərin-komandirin səmimi münasibəti, həmfikir olması ilə mümkündür.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

## PUA Akademiyasının növbəti buraxılış mərasimi keçirilib

2025-ci ilin hazırlıq planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin Pilotsuz Uçuş Aparatları (PUA) Akademiyasında PUA mütəxəssislərinin hazırlığı kursunun buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə çıxış edən polkovnik Mobil Ovçiyev məzunları Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

Sonda kursu bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

## Sağlam bədəndə sağlam ruh olar



Əsgər Elcan Zaur oğlu Şəfiyev hərbi xidmətdə nizam-intizamıyla fərqlənən və eyni zamanda, tatami üzərində qazandığı uğurlarla seçilən istedadlı əsgərlərdəndir. Uşaqlıqdan idmana bağlı olan Elcan həm yerli, həm də beynəlxalq arenalarda ölkəmizi uğurla təmsil edib.

Cüdoya olan marağı hələ 7 yaşından formalaşıb və bu yolda ona ən böyük dəstəyi atası göstərib. İlk dəfə məhz həmin yaşda olarkən keçirilən zona yarışında iştirak edən Elcan 3-cü yeri tutaraq uğur yoluna doğru inamlı addım atıb. Qısa müddətdə öz yaşıdları arasında seçilən Elcan 6 dəfə Bakı çempionu, bir neçə dəfə isə Respublika çempionatının mükafatçısı olub. Onun ən yadda qalan uğurlarından biri də 2020-ci ildə Azərbaycan birinciliyində birinci yeri qazanmasıdır.

Təhsilini də idman sahəsində davam etdirən Elcan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında cüdo məşqçiliyi ixtisası üzrə oxuyub. Tələbəlik illərində də uğurlarını davam etdirən gənc idmançı 2023-cü ildə Qazaxıstanda keçirilən Universitetlərarası beynəlxalq yarışda üçüncü yerə layiq görülüb.

Elcan təkcə ölkədaxili yarışlarla kifayətlənməyib, İspaniya, Rusiya və Gürcüstanda keçirilən beynəlxalq turnirlərdə də mükafatçılar sırasına düşüb, Azərbaycanın üçrəngli bayrağını layiqincə təmsil edib.

Hazırda Azərbaycan Ordusunda əsgəri xidmətini davam etdirən Elcan Şəfiyev idman vərdişlərini digər silahdaşlarına da aşılayır. Hərbi hissədə də mütəmadi olaraq fiziki hazırlığını artırır. Asudə vaxtlarında əsgər yoldaşları ilə idmanın faydaları haqqında maarifləndirici söhbətlər edir.

Elcan və digər gənclərimizin müxtəlif idman sahələrində qazandıqları uğurlar bir daha onun göstəricisidir ki, Azərbaycan gəncləri döyüş meydanında olduğu kimi, idman arenalarında da güc və iradə nümayiş etdirir, layiqli qələbələr qazanırlar. Belə igidlərimiz xalqımızı bir daha əmin edir ki, Vətənimiz əmin əllərdədir.

**Kursant**
**Elgün ƏLƏSGƏRZADƏ**

# Haqq savaşımızın təntənəsi

*Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkənin müdafiə qüdrəti daha da gücləndi, ordu quruculuğu sahəsində bir sıra uğurlar qazanıldı. Bu uğurlar Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.*

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan Ordusunun formalaşdırılmasına və gücləndirilməsinə xüsusi önəm verdi. Bu dövrdə ordu quruculuğu istiqamətində ciddi addımlar atıldı. Azərbaycan Ordusu mütəşəkkil və nizami bir orduya çevrildi. Vahid komandanlıq təmin edildi. Bu istiqamətdə zəruri tədbirlər həyata keçirildi. Peşəkar ordunun formalaşdırılması üçün qanunvericilik bazası yaradıldı. Struktur dəyişiklikləri peşəkar zabit kadrlarının hazırlanması üçün şərait yaratdı, hərbi təhsil sistemi təkmilləşdirildi. Ulu Öndərin ordu quruculuğu istiqamətində apardığı işlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildi, prioritet məsələ elan edildi, inkişaf etdirilərək daha da möhkəmləndi. Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi.

2016-cı il Aprel döyüşləri zamanı Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətini nümayiş etdirərək, qısa müddətdə Lələtəpə və digər strateji əhəmiyyətli yüksəklikləri düşməndən azad etdi. Aprel döyüşləri 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və Vətən müharibəsində düşmən üzərində qazanılan Böyük Zəfərin başlanğıc nöqtəsi oldu.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud formada pozaraq, müxtəlif növ silahlardan istifadə etməklə bütün cəbhə boyu mövqelərimizi atəşə tutdu. Təxribat nəticəsində çoxlu sayda mülki şəxslər və hərbi qulluqçular şəhid oldular. Təcavüzkar erməni silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə Qarabağ bölgəsini və ətraf rayonları işğal altında saxlaması Azərbaycana qarşı real təhlükə yaradırdı. Azərbaycan Ordusunun müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə ölkədə hərbi vəziyyət, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə qismən səfərbərlik elan edildi. On minlərlə gənc könüllü olaraq torpaqlarımızın azadlığı uğrunda döyüşmək üçün müvafiq qurumlara müraciət etdi.

Ali Baş Komandan İlham Əliyev Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə bağlı verdiyi göstərişlər əsasında Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücumu - Zəfər yürüşü başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 illik həsrətə son qoydu.

Sözsüz ki, müharibə itkisiz də keçmədi. Vətənpərvər oğullarımız düşmənə sinə gərərək şəhidlik zirvəsinə ucaldılar. Ermənistan silahlı qüvvələrinin həm canlı qüvvələri, həm də çoxlu sayda texnikası Azərbaycan Ordusu tərəfindən məhv edildi. Düşmənin döyüş meydanında qoyub qaçdığı hərbi texnikalar ordumuz tərəfindən qənimət olaraq götürüldü. Cəmi 44 gün çəkən Vətən müharibəsi 2020-ci il 8 Noyabr tarixində qələbə ilə başa çatdı.

Silahlı qarşıdurmadan fərqli olaraq, arxa cəbhədə də informasiya müharibəsi gedirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xarici jurnalistlərə müsahibə verərək, Azərbaycanın bu savaşda haqlı olduğunu dünya ictimaiyyətinə çatdırdı. Dövlət başçısı Ermənistanın törətdiyi müharibə cinayətlərini Azərbaycanın beynəlxalq hüquq çərçivəsində apardığı əməliyyatları və münaqişənin həllinə dair ölkənin prinsiplərini ətraflı izah etdi. Bu müsahibələr BBC, CNN, "Al Jazeera", "France 24" kimi nüfuzlu media qurumlarında yayımlandı. Bütün bunlar Azərbaycanın informasiya müharibəsində qazandığı qələbənin üstünlüyünün bariz nümunəsidir.

Müharibə zamanı Prezident İlham Əliyevin "Dəmir Yumruq" ifadəsi ictimaiyyət arasında maraqla qarşılanmışdı. Bu ifadə Azərbaycan Ordusunun qətiyyətini, gücünü və birliyini bir daha dünyaya nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan çıxışlarında Dəmir Yumruğun yerində olduğunu və lazım gələrsə, yenidən işə düşəcəyini vurğulamışdı. "Dəmir Yumruq" həm müharibə zamanı, həm də sonrakı dövrdə Azərbaycan xalqının və ordusunun birliyini, gücünü təcəssüm etdirən rəmzlərdən birinə çevrildi.

Müharibədən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başlanıldı. Prezident İlham Əliyevin Fərmanı ilə Şuşa şəhəri Azərbaycanın Mədəniyyət paytaxtı elan edildi. Şəhərdə tarixi abidələr bərpa edilir, yeni infrastruktur obyektlərinin yaradılması üzrə layihələr həyata keçirilir. Digər azad edilmiş şəhərlərimizdə, kəndlərimizdə də sürətli yenidənqurma işləri aparılır, insanların doğma yurdlarına qayıdışı təmin olunur.

Prezident İlham Əliyev 3 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında" Sərəncam imzaladı. Bu Sərəncama əsasən, hər il 8 Noyabr tarixi Azərbaycanda Zəfər Günü kimi qeyd edilir, eyni zamanda, bu qərar 2020-ci ilin Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi qələbənin əbədiləşdirilməsi məqsədini daşıyır. 8 Noyabr tarixi 2020-ci ildə Şuşa şəhərinin azad edildiyi gün olması ilə xüsusi əhəmiyyət kəsb edir. Şuşanın azad edilməsi Vətən müharibəsində qələbənin qazanılmasında həlledici rol oynadı. Bu il xalqımız Böyük Zəfərin beş illiyini təntənəli surətdə qeyd edəcək.

8 Noyabr - Zəfər bayramı təkcə keçmişin qələbəsi deyil, həm də gələcəyə ümid və inamdır. Azərbaycan xalqı öz birliyi, qəhrəmanlığı ilə sübut etdi ki, haqq hər zaman qalib gəlir. Bu gün Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam bərpa olunub və ölkəmiz regionda sülhün və sabitliyin əsas təminatçısına çevrilib. Ulu Öndər Heydər Əliyevin bünövrəsini qoyduğu, Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatlar nəticəsində Azərbaycan Ordusu bu gün yüksək döyüş qabiliyyətinə malikdir. Qazanılan uğurlar göstərir ki, Azərbaycanın hərbi gücü ölkənin təhlükəsizliyini qorumaq və suverenliyini təmin etmək qüdrətindədir. Azərbaycan Ordusu təkcə regionda deyil, hətta beynəlxalq müstəvidə də güclü ordu kimi tanınır.

**Kifayət ƏLİYEVA**
**"Azərbaycan Ordusu"**

## Əsgərin tribunası

### Qürurlanırıq ki, artilleriyaçıyıq!



*Hərbi xidmətin nə olduğunu yeniyetməlik illərindən dərk etmişdik. Biz də bilirdik ki, çağırışçı yaşına çatanda hərbi xidmətə gedəcəyik. Məktəbdə müəllimlərimizin, ailədə atamızın, hərbi xidmətdən tərxis edilmiş qonşularımızın söhbətlərindən çox şey öyrənmişdik. Bu söhbətlər bizə hərbi xidməti sevdirmişdi.*

İkinci Qarabağ müharibəsi başlayanda 6-cı sinifdə oxuyurdum. Digər həmyaşıdlarım kimi mən də müharibəni televizor vasitəsi ilə izləyirdim. Ordumuzun qələbəsi ilə qürur duyurdum. Yaşımın az olmasına görə təəssüflənmişdim. O vaxt atam məni qınamış, öyüd-nəsihət vermişdi: "Ordumuz qalib gələcək, ərazi bütövlüyümüz tam bərpa olunacaq. Böyüyəndə sən də əsgər olacaqsan. Sən də, sənin yaşıdların da Vətən torpağını qoruyacaqsınız. Onda Vətənə elə layiqincə xidmət edərsən ki, bugünkü təəssüfünü unuda biləsən".

Şuşa işğaldan azad ediləndə sevincimiz kükrədi, belə dövlətimiz, ordumuz olduğu üçün çox qürurlandıq. 8 noyabr bizim tarixi sevincimiz oldu. Bu sevinc həmişə qürurla yaşadılacaq.

Hərbi xidmətdə artilleriya ixtisasına təyin olunanda çox sevindim. İkinci Qarabağ müharibəsində iştirak etmiş bir topun heyət üzvü kimi qürurlandım. Komandirlərimizdən öyrəndiklərimizi təlimlərlə möhkəmləndiririk. Hərdən bizə elə gəlir ki, 2020-ci ilin payızında düşmənin komanda və dayaq məntəqələrini, qruplaşmalarını dağıdan, məhv edən artilleriyaçılarımızın sırasında biz də olmuşuq.

Komandirimiz bizə Füzuli rayonu ətrafında gedən döyüşlərdən danışanda artilleriyanın gücünə, artilleriyaçılarımızın döyüş hazırlığına görə necə qürurlanmışdıq. Elə xidmət edirik ki, bizimlə də qürurlansınlar.

Biz döyüş hazırlığımızı həm məşğələlərlə, həm təlimlərlə, həm də müstəqil təkmilləşdiririk.

Hərbi xidmət Vətənə sevgimizi daha da artırdı. Biz bu Vətənin həm vətəndaşı kimi, həm də Azərbaycan Ordusunun əsgəri kimi qürurlanırıq.

**Əsgər**
**Əziz HÜSEYNOV**
**"N" hərbi hissəsi**

### Xidmətimiz Vətənə sonsuz sədaqətdir



Sonuncu sinifdə oxuyanda ədəbiyyat müəllimimiz bizə inşa yazdırmışdı: "Vətən mənə oğul desə nə dərdim...". Mən Məmməd Arazın bu şeirini əzbər bilirdim, onun aşıladığı mahiyyəti də yaxşı dərk etmişdim. Vətənə oğul olma şərtini özüm düşündüyüm kimi izah etməyə çalışmışdım. Yazmışdım ki, əsl oğul Vətənin hər çağırışına düşünmədən getməlidir. Birinci Qarabağ müharibəsinin Milli Qəhrəmanlarını, şəhidlərini xatırlatmışdım. İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla döyüşənlərimizi, şəhid olanlarımızı yada salmışdım: "Vətən onlara oğul dedi. Biz də oğul deyirik. Gələcək nəsillər də oğul deyəcək, tarix də belə deyir. Mən də Vətənə layiqincə xidmət edəcəm. Əgər düşmən sərhədlərimizə yaxınlaşmağa cəsarət edərsə, mən də o oğullar kimi qətiyyətlə döyüşəcəm, bu döyüş mənim Vətənə oğulluq borcum olacaq...". Müəllimimiz inşamı bəyənmişdi, üstəlik demişdi ki, sən yaxşı əsgər olacaqsan.

İndi əsgərəm. Yaxşı əsgər olmaq üçün komandirlərimin, zabitlərimizin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirirəm, döyüş və mənəvi-psixoloji hazırlığımı daha da artırıram.

Mən artilleriyaçıyam. Komandirimiz İkinci Qarabağ müharibəsində artilleriyaçılarımızın şücaətindən, onların yüksək döyüş hazırlığından, Vətənə sevgisindən, bu qələbələrin Hərbi Anda sədaqət ilə qazanıldığından da danışmışdı. Özü də qürurlanmışdı, biz də qürurlanmışdıq. Bu hərbi ixtisasa təyin olunduqda, sevincin ən gözəlini yaşamışdıq.

Hərbi xidmətdə mən də dostlar qazanmışam. Onlar da mənim kimi düşünürlər. Hər birimiz müharibədə şəhid olanların hər birinin döyüş yolunun davamçısı olmağı özümüzə mənəvi borc bilirik. Müharibə başa çatsa da, onların döyüş əzmi, qələbə ruhu, Vətənə sevgisi hərbi xidmətimizin mahiyyətidir. Buna görə də bizim hər birimizin hərbi xidməti Vətənə sonsuz sədaqətdir. Bunları yüksək döyüş hazırlığı ilə yerinə yetirik.

Qürurlanırıq ki, biz Azərbaycan əsgəriyik!

Qürurlanırıq ki, artilleriyaçıyıq!

**Əsgər**
**Mahmud PAŞAYEV**
**"N" hərbi hissəsi**

# Ana dilin varlığındı, Azərbaycan əsgəri!

(Əvvəli 1-ci səhifədə)

Böyük tarixi şəxsiyyət Heydər Əliyev böyük azərbaycançılıq heysiyyəti ilə, azərbaycançılığa sədaqətlə deyirdi: "Müxtəlif dillərə mənsub olan insanlar Azərbaycan dilini sadəcə eşidərək, onun mənasını o qədər bilməyərək, Azərbaycan dilinin nə qədər şeirə bənzədiyini, xoş ahəngli olduğunu dəfələrlə qeyd ediblər. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xalqımızın içində də Azərbaycan dilini mütləq hakim dil etməliyik".

Hələ XVI əsrdə, Səfəvilər dövründə dövlətin qurucusu Şah İsmayıl Xətai dövlət dili kimi Azərbaycan dilini müəyyənləşdirmişdi. İmperiya olaraq bu dilin sərhədləri daxilində işləkliyi təmin olunmuşdu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana, Azərbaycan dövlətçiliyinə, Azərbaycan dilinə dönməz sevgisi müasir Azərbaycanın mənəvi siması kimi xarakterizə edilə bilər. 60-cı illərdə Azərbaycanda dövlət dilinin Azərbaycan dili olması ilə bağlı məsələ qaldırılanda, bu istiqamətdə qərar qəbul edilərdə Moskva olduqca ciddi siyasi cəza tədbiri görmüşdü. Bu tədbir təkcə Azərbaycanda deyil, digər müttəfiq respublikalarda da dil siyasətini imperiya siyasətinə qarşı qoymağı ciddi yasaqlamışdı. Ulu Öndər Heydər Əliyev bu qadağaları özünün böyük sevgisi ilə, dönməz məntiqi ilə, azərbaycançılığı ilə üstələyə bilmişdi.

Böyük tarixi şəxsiyyətlərin mübarizəsi böyük amallarla bağlı olur. Ən böyük azərbaycanlı kimi azərbaycançılıq ideologiyasını məfkurə səviyyəsinə qaldıran Heydər Əliyev hələ sovetlər dönəmində də Azərbaycan dilinin statusunu dövlət dili statusu səviyyəsinə çatdırmaq uğrunda mübarizə aparırdı. Mərkəzi, dönməz məntiqi ilə bunun hüquqiliyinə də, qanuniliyinə də, tarixiliyinə də inandırmağa çalışırdı və nəticə etibarilə buna nail olurdu. Böyük siyasi xadim Azərbaycan dilinə dövlət dili statusu verilməsinin siyasi, hüquqi cəfakeşi idi. 1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsinin və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddənin "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" kimi ifadə edilməsi təklif olunmuşdu və təklif tarixi hadisə olmuşdu.

Dövlətin daxili siyasətinin müxtəlif çalarları sırasında dil siyasəti də həmişə yüksək sədaqətlə qorunurdu. Dilin işləkliyi, dilin təmizliyi, dilin mühafizəkarlığı, dilin digər dillərə inteqrasiyası və s. həmişə diqqət mərkəzində saxlanılırdı, bu sahə üzrə həyata keçirilən müxtəlif xarakterli tədbirlər dövlət-dil vəhdətinin tarixi-hüquqi ayrılmazlığını təmin edirdi. Tarix təsdiqləyir ki, 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyası hazırlananda dövlət dilinin necə adlandırılması ilə bağlı müxtəlif təkliflər irəli sürülmüşdü. Təkliflərin çox böyük əksəriyyətində ana dilimizin Azərbaycan dili adlandırılması dəstəklənirdi. Geniş müzakirələrdən sonra 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması təsbit edildi.

Dil siyasəti olduqca həssas siyasətdir. Dövlətçilik baxımından bu siyasət olduqca mühafizəkar siyasətdir. Dil siyasətinin milli-xəlqi başlanğıca əsasən müəyyənləşməsi, siyasi proseslər fonunda formalaşması, möhkəmlənməsi dövlətçilik atributu oldu. Müstəsna əhəmiyyətə malik olan 2001-ci il 18 iyun tarixli Fərman əsasında Dövlət Dil Komissiyası yaradıldı.

2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Qanuna əsasən Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri kimi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsini təmin edir, dünya azərbaycanlılarının milli-mədəni özünüdərkinin Azərbaycan dili vasitəsilə gerçəkləşməsini təmin edir. Həmin Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayıb.

Ulu Öndərin "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında"




2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu Fərman həm Azərbaycan dilinə marağın daha elmi əsaslarla formalaşmasını, həm dünya dilləri sırasında Azərbaycan dilinin layiq olduğu yerin yüksəkliyini təsbit etdi, həm də Azərbaycan dilinin zənginliyinin (ən azından sinonimlər şəbəkəsi) dünya dillərinə inteqrasiyasını istiqamətləndirdi.

Bakıda Kitabi-Dədə Qorqud dastanlarının 1300 illiyinin beynəlxalq səviyyədə qeyd olunması həm folklor formatında Azərbaycan ədəbiyyatına, elə bu formatda da tarixinə, mədəniyyətinə ehtiram olmaqla, Azərbaycan dilinə sonsuz sədaqəti ifadə edirdi. Bu tədbir bəşəri mədəniyyətin koordinatlarının haradan başladığını da xatırladırdı, haradan keçdiyini də, necə keçdiyini də...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük tarixi şəxsiyyət Heydər Əliyevin dövlətçilik kursunu bütün istiqamətlər üzrə uğurla davam etdirir.

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" deyən böyük siyasi xadim Heydər Əliyev Türk dünyası yazıçılarının III qurultayında nitqində demişdi: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik". Bu fikrin fəlsəfi mahiyyətinin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev deyib: "Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman da Azərbaycan Respublikasının dövlət dilinin həmişə diqqət mərkəzində saxlanıldığının təsdiqidir. Bu Fərmana əsasən Nazirlər Kabinetinin müvafiq qərarı ilə Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılıb.

1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür, azərbaycançılıq sevgisiylə əhatələnən gündür, dövlətçiliyə sədaqətin nuru ilə işıqlanan gündür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qürurla deyir: "Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir. Mən ana dilinin qorunması ilə bağlı müxtəlif vaxtlarda öz sözlərimi demişəm. Azərbaycan Milli Elmlər Akademiyasının kürsüsündən və digər tədbirlərdə demişəm ki, bizim zəngin dilimiz var, biz haqlı olaraq dilimizlə fəxr edə bilərik. Hesab edirəm ki, zənginliyi nöqteyi-nəzərindən Azərbaycan dilinin dünya dilləri arasında xüsusi yeri vardır.

Son vaxtlar Azərbaycan dilinə daxil edilən bəzi kəlmələr dilimizin saflığını pozur. Bizim dilimiz çox zəngindir. Hesab edirəm ki, Mədəniyyət Nazirliyi digər aidiyyəti qurumlarla birlikdə, Təhsil Nazirliyi ilə, Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan dilinin qorunması üçün çox ciddi işlər aparmalıdır. Müxtəlif tədbirlər görülür, proqramlar var, ancaq gündəlik həyat onu göstərir ki, biz bəzi hallarda dilimizin saflığının pozulmasını görürük. Mən bunu mətbuat orqanlarından, televiziya məkanından görürəm və əlbəttə ki, bunun qarşısı alınmalıdır. Biz əsrlərboyu dilimizi qorumuşuq, bundan sonra da qorumalıyıq. Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir".

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda gender perspektivləri: güclü orduya aparan yol

Müasir təhlükəsizlik mühitində hərbi güc yalnız silah-sursatla deyil, eyni zamanda insan resurslarının optimal istifadəsi ilə ölçülür. Qadınların hərbi xidmətə cəlb olunması və gender bərabərliyinin təmin edilməsi bu baxımdan vacib strateji prioritetlərdən biridir. Qlobal səviyyədə gender bərabərliyi ideyalarının geniş vüsət alması qadınların hərbi sahəyə inteqrasiyasını zəruri edir. Azərbaycan da bu istiqamətdə beynəlxalq tendensiyalara uyğun olaraq ciddi və məqsədyönlü addımlar atmaqdadır. Xüsusilə Azərbaycan Ordusunda qadınların rolunun artırılması, gender əsaslı siyasətin tətbiqi və bu sahədə ardıcıl tədbirlərin həyata keçirilməsi bu prosesin prioritetlərindəndir.

Gender bərabərliyi - qadınların və kişilərin bərabər hüquqlara, imkanlara və məsuliyyətlərə sahib olmalarını təmin edən prinsiplər sistemidir. Bu sistemə əsaslanan cəmiyyətlərdə fərdlər cinslərinə görə deyil, bacarıq və keyfiyyətlərinə görə qiymətləndirilir. Azərbaycan Respublikası gender bərabərliyini təmin etmək məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə mühüm addımlar atıb.

Azərbaycan Respublikası gender bərabərliyinin təmin olunması ilə bağlı bir sıra beynəlxalq sənədlərə qoşulub. BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiyası (CEDAW) və BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsi bu sahədə əsas normativ çərçivə rolunu oynayır. Xüsusilə 1325 saylı qətnamə qadınların sülh, təhlükəsizlik və münaqişələrin həllində iştirakını dəstəkləyir və bu, Azərbaycanın milli təhlükəsizlik strategiyalarında da öz əksini tapır.

Azərbaycanda gender bərabərliyi yalnız sosial-iqtisadi deyil, həm də milli təhlükəsizlik və müdafiə strategiyasında prioritet istiqamətlərdən biridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan bu siyasət Azərbaycan Ordusunun güclü, çevik və inklüziv olması üçün gender əsaslı yanaşmaları ön plana çıxarır.

2006-cı ildə qəbul edilən "Gender bərabərliyinin təminatları haqqında" Qanun, eləcə də Azərbaycan Konstitusiyası bu istiqamətdə daxili hüquqi bazanın möhkəmləndirilməsinə xidmət edir. Dövlət idarəçiliyində, o cümlədən ordu strukturunda qadınların rəhbər vəzifələrə irəli çəkilməsi gender balansının təmin olunmasına mühüm töhfə verir. Azərbaycan Konstitusiyası və normativ-hüquqi sənədlər gender bərabərliyi prinsipini qorumaqla yanaşı, qadınların hərbi sahədə rəhbər vəzifələrə irəli çəkilməsini də dəstəkləyir.

Azərbaycan Ordusunda qadın hərbi qulluqçuların və mülki işçilərin rolu və fəaliyyəti ildən-ilə genişlənir. Hazırda qadınlar Ordunun müxtəlif sahələrində xidmət edirlər. Təkcə arxa cəbhədə və tibbi bölmələrdə deyil, eyni zamanda döyüş hazırlığı və hərbi rəhbərlikdə də fəal iştirak edirlər. Əgər əvvəllər qadın hərbçilər əsasən tibb və təminat sahələrində təmsil olunurdularsa, həm də onlar müxtəlif hərbi ixtisaslar üzrə xidmət edirlər.

Azərbaycan Ordusunda aparılan struktur islahatları gender bərabərliyinin möhkəmləndirilməsi və qadınların peşəkar inkişafı üçün əlverişli şərait yaradır. Bu, yalnız sosial ədalət deyil, hazırda hərbi effektivlik məsələsidir. Yeni nəsil hərbi siyasətin tərkib hissəsi və inkişafın yeni mərhələsi kimi "Gender mainstreaming" - yəni gender bərabərliyinin siyasət, proqram və təlimatlara sistemli şəkildə inteqrasiyası - ordumuzun daha dayanıqlı və effektiv struktura çevrilməsinə xidmət edir.

Azərbaycan Ordusunda bu konsepsiyanın tətbiqi bir neçə əsas istiqaməti əhatə edir:

- Təhsil və hazırlıq: Hərbi təhsil müəssisələrində gender bərabərliyi ilə bağlı kurs və seminarların təşkili, zabit heyətinin bu sahədə maarifləndirilməsi;
- Karyera imkanları: Qadınların xidmət müddəti ərzində qarşılaşdıqları maneələrin aradan qaldırılması, onların irəli çəkilmə imkanlarının kişilərlə bərabər şəkildə təmin olunması;
- Qanunvericilik və normativ baza: Gender ayrı-seçkiliyinin qarşısını alan daxili hərbi nizamnamələrin və qaydaların formalaşdırılması.

Bu çərçivədə görülən əsas tədbirlər bunlardır:

- Hərbi təhsildə gender modullarının tətbiqi - hərbi məktəblərdə və akademiyalarda gender mövzusunda tədrisin təşkili;
- Peşəkar inkişaf imkanlarının genişləndirilməsi - qadın hərbçilərin xidmətdə irəliləməsi üçün bərabər imkanların yaradılması;
- Maarifləndirmə və təlimlər - zabit heyətinə gender əsaslı təlimlərin verilməsi və komanda qərarlarında inklüzivliyin artırılması.

Müdafiə Nazirliyinin təşkil etdiyi tədbirlərdə qadın zabitlər gender bərabərliyi, psixoloji dəstək və təhsil məsələləri üzrə çıxış edir, "Ehtiyat zabit hazırlığı kursları"nda, beynəlxalq hərbi forumlarda və gender mövzulu seminar və təlimlərdə iştirak edir, orduda gender yanaşmasının sistematik prinsiplərinin tətbiqinə töhfə verirlər. Mülki qadın işçilər isə logistika, təlim, tədris və inzibati sahələrdə mühüm funksiyalar yerinə yetirirlər. Bu, hərbi strukturlarda qadınların daha geniş iştirakına imkan yaradır və gender balansını qorumağa xidmət edir.

(Ardı 6-cı səhifədə)

*Milli Qəhrəmanlarımız*

# Tarixi Zəfərin kökləri

2004-cü ildən ordu sıralarında zabit olan şəhid Samid İmanov Xüsusi Təyinatlı Qüvvələrin mənsubu olaraq müxtəlif vəzifələrdə uğurla xidmət edib.

Hərbi təhsilini fərqlənmə ilə bitirən Samid gənc zabit olduğu dövrdən öz üzərində daim çalışır, bilik və bacarıqlarını daim artırırdı. O, xidmət müddətində Türkiyə, Pakistan, İsveç və Rumıniya respublikalarında müxtəlif kurs və təlim-məşqlərində iştirak edib. Komandiri olduğu bölmə ölkə daxilində təşkil olunan müxtəlifmiqyaslı təlimlərdə qarşıya qoyulan tapşırıqları yüksək peşəkarlıqla icra etməyi bacarıb.

Xidməti müddətində öz ixtisasının incəliklərinə bələd olan təcrübəli zabit olaraq, tabeliyindəki hərbi qulluqçuların da yüksək bilik və bacarığa malik döyüşçü kimi formalaşmasını özünə komandir borcu bilib.



***Milli Qəhrəmanlarımızı tanıyaq rubrikası şəhid mayor İmanov Samid Gülağa oğluna həsr olunub. Milli Qəhrəmanımız 1981-ci il oktyabrın 14-də Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. İbtidai təhsilinə 1988-ci ildə Neftçala rayonu 1 nömrəli tam orta məktəbində başlayıb. Təhsilini başa vurduqdan sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olub, 2003-cü ildə hərbi təhsilini fərqlənmə ilə bitirib, Ulu Öndər Heydər Əliyev tərəfindən mükafatlandırılıb.***

Şəhid Samid İmanov 2014-cü ilin avqustunda Azərbaycan-Ermənistan təmas xəttində baş verən təxribatın qarşısının alınmasında da fəal iştirak edib. Rəhbərlik etdiyi heyət düşmənin arxasına keçərək ona sarsıdıcı zərbələr endirib.

Mayor Samid İmanov 2016-cı ilin Aprel döyüşləri zamanı Tərtər rayonunun Talış kəndi istiqamətində döyüş tapşırığı almışdı. Tabeliyindəki döyüşçülərlə birlikdə irəliləyən Samid döyüşlər vaxtı çiyin və ayaq nahiyəsindən ciddi qəlpə yaraları alır. Vəziyyətin yaxşı olmamasına baxmayaraq, təxliyədən imtina edən qayğıkeş komandir çiyin-çiynə döyüşdüyü silahdaşının döyüş meydanından təxliyəsini vacib sayır və köməyə gələn heyətə son əmrini verir.

Çoxlu qan itirən Samid İmanovun nəşi aprelin 8-də ərazidən götürülür, böyüyüb boya-başa çatdığı Neftçala şəhərində böyük insan axınının iştirakı ilə Şəhidlər xiyabanında son mənzilə yola salınır.

2016-cı ilin 19 aprelində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Sərəncamı ilə Vətənimizin bütövlüyünün qorunub saxlanılmasında göstərdiyi xüsusi xidmətlərinə və döyüş tapşırıqlarının yerinə yetirilməsində göstərdiyi şəxsi igidliyə görə mayor Samid Gülağa oğlu İmanov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görüldü.

Ölümündən sonra şəhidimizin adının əbədiləşməsi üçün Milli Qəhrəman Samid İmanovun adı Neftçala şəhərindəki 1 nömrəli tam orta məktəbə və küçələrimizdən birinə verilib.

Azərbaycanın Milli Qəhrəmanı şəhid mayor Samid İmanov ailəli idi, bir qızı və oğlu Vətənə əmanət qalıb.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

*Hərb tariximizdən*

# Şah İsmayıl Xətai

Orta əsrlərə kimi dövlət başçısı həm də sərkərdə olurdu. Dövlətçilik bacarığı, güclü hərbi təxəyyül hərbi qarşıdurmalarda - hücumlarda, müdafiələrdə döyüşün gedişini müəyyənləşdirirdi. Təbii ki, güclü ordu bu amillər də olmaqla qalib gəlirdi. Dövlət bu cür tanınırdı, güclənirdi, sərhədlərini bu şəkildə genişləndirirdi...

Azərbaycanın dövlətçilik tarixində belə tarixi şəxsiyyətlər çox olub. Onlardan biri də Şeyx Heydər oğlu İsmayıl (Şah İsmayıl Xətai) olub. XV əsrin sonları, XVI əsrin əvvəllərində dünya hərbi qüdrətin bu ünvanını tanımağa başladı. Gördü ki, 12-13 yaşlı uşaq ulu babasının yaratdığı təriqəti dövlətçilik mübarizəsinə çevirə bildi. 7 nəfər hamisi ilə Azərbaycan dövlətçiliyinin cəfakeşi oldu.

XVIII əsrdə sözü eşidilən filosof-siyasətçi K.Marks yazırdı: "Səfəvilər xanədanının banisi Şah İsmayıl fateh idi. O, on dörd illik hakimiyyəti dövründə on dörd əyalət fəth etmişdi". İki yüz ilə yaxındır ki, dünya bu fikirlərin işığını qorumaqdadı. Bu fikirlər xatırlanırsa, Azərbaycan dövlətçiliyinin tarixinə ehtiram qorunur. Həm də zamanında dünyanın bel kəməri olmuş siyasəti ilə Səfəvilər dövləti!..

Hər xalq dövlət yarada bilməyib. Yaratsa da çoxusu iri dövlətlərin asılılığına düşüb, dövlətçiliyini itirib. Azərbaycanın hərb tarixi dövlətçilik tarixindən daha qədimdir. Hərb tarixi də dövlətçilik tarixi səviyyəsində qüdrətlidir. Hadisələr təsdiqləyir ki, hərb tarixinin qüdrəti bilavasitə dövlətçiliyi yaşatmaq deməkdir.

12 yaşlı bir uşağın (ruhun məni bağışlasın, Şeyx baba!) dünyanın nizamını dəyişdirə biləcəyinə o vaxtlar inananlar olub.

İnananlar - qızılbaşlar da, hələ əli qılınca yatmayanlar da ona şahım deyib. Heydər oğlu İsmayıl şah İsmayıl olub.

Şeyx Səfiəddinlə başlayan nəsilin nüfuzu getdikcə artırdı. Bundan narahat olan Ağqoyunlular Şeyx Heydəri qəddarlıqla öldürmüşdü. İsmayılın anası Aləmşah bəyim Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı idi. Hakimiyyətə gəlişlərinin qarşısını almaq üçün onu iki oğlu - İbrahim və balaca İsmayıl ilə birlikdə İstəxr qalasındakı həbsxanaya salmışdılar. Ağqoyunlu hökmdarı Sultan Yaqub öldürüldükdən sonra dolaşığa düşmüş siyasi çəkişmələr başladı. Rüstəm Mirzə Səfəvilərdən istifadə etmək üçün Şeyx Heydərin həyat yoldaşı Aləmşah bəyimi və oğullarını həbsdən azad etdi. Sonralar



bunun peşmançılığını çəkmişdi...

İsmayıl Şeyx Heydər oğlunun təhsili, tərbiyəsi, həm şəxsiyyət kimi, həm döyüşçü kimi, həm sərkərdə kimi, həm də şah kimi formalaşması Gilan hakimi Həsən xanın himayəsi ilə gedirdi. Bunun məsuliyyəti Lələ Hüseyn bəyə tapşırılmışdı. Yeniyetmə sərkərdə, yeniyetmə dövlət xadimi "gözlərdən uzaqda" belə böyüyürdü, belə püxtələşirdi...

Şah İsmayılın yaratdığı və formalaşdırdığı hərəkat əvvəlcə şamlı, rumlu, ustaclı, təkəli, əfşar, qacar, zülqədər, varsaq, qaradağlı, sonralar bayat, qaramanlı, baharlı, alpaut, ərəşli, qazaxlı və digər tayfaları birləşdirmişdi. Bu hərəkatda talışlar da vardı. Bu birlik silahla əqidənin ayrılmaz birliyi idi. Silah, qılınc əqidənin kəsəri idi.

Tədqiqatçılar əmindir ki, Şeyx Heydər oğlu İsmayılın yaratdığı böyük dövlətin - Səfəvilər dövlətinin adı səcərənin başlanğıcı olan Şeyx Səfiəddinin adı ilə bağlıdır. Dövlət adını əqidənin yaradıcısının adından götürüb.

İsmayıl bilirdi ki, yaranmaqda olan dövlət ciddi bir ideologiyaya əsaslanmalıdır. Qüdrətli təfəkkürə malik olan 13 yaşlı sərkərdə qızılbaşlığın vahid ideologiyasını yaratdı. Bu ideologiyada əqidə, amal, məfkurə ahənrübalığı vardı. O bütün Azərbaycan türklərini döyüşlərdə qələbələrə, qələbələrdən döyüşlərə apardı. Döyüşə-döyüşə, qələbələr qazana-qazana qüvvələri, inananları öz ətrafında sıx birləşdirdi, bu birlik qüdrət oldu. Bu qüdrət nəhəng bir ərazidə böyük bir dövlətə çevrildi...

Qızılbaşlar Xətainin sərkərdəliyi ilə Ağqoyunlu və Şirvanşah qoşunlarını məğlub etdi. Bu qələbə dövlətin gələcək uğurlarının başlanğıcı oldu. İsmayıl Şeyx Heydər oğlu Təbrizə yeni yaranmış Səfəvilər dövlətinin şahı kimi daxil oldu. 1501-ci ildə Səfəvilər dövləti yarandı.

Şah İsmayıl Xətai dövrün döyüş, hərb strategiyasını yaxşı bilirdi, böyük hərbi təxəyyülə malik sərkərdə idi. Hər əməliyyatı böyük amallar üçün aparırdı. Onun düşüncələrində Azərbaycan var idi, Azərbaycan üçün döyüşürdü.

Şah İsmayıl Xətai bütün tarixi şəraitlərdə, hərbi vəziyyətlərdə Azərbaycanın mənafeyini düşünürdü. Şah İsmayıl atası Şeyx Heydərin qatili olan Şirvanşah Fərrux Yasarı məğlub etdikdən sonra qoşununu tamamilə darmadağın etmək üçün onların sığındığı Gülüstan qalasını mühasirəyə almışdı. Qalanın mühasirəsi uzandığı üçün böyük əmirlərindən soruşmuşdu: "Sizə Gülüstan qalasını lazımdır, yoxsa Azərbaycan taxtımı?". Onlar "Azərbaycan taxtı, şahım!" demişdilər.

Azərbaycan torpaqlarının vahid və qüdrətli dövlətdə birləşdirilməsi Azərbaycanın dövlətçilik tarixinin yeni mərhələsi idi. Bu, dünyəvi dövlətçilik təcrübəsi bir qədər heyrətlə, bir qədər də qısqanclıqla qarşılanmışdı. Səfəvilər dövləti dünyəvi dövlət olduğuna görə bu dövlətçilik 235 il yaşadı; Səfəvilər dövlətini dünyaya qısqananlar heç nəyə nail ola bilmirdi...

Şah İsmayıl bu dövləti Azərbaycanda yaratmışdı. Bu, Azərbaycana sevgi idi. Qızılbaşlar bilirdilər ki, Şah İsmayılın məramı Azərbaycanı yadların istər siyasi, istərsə də hərbi nüfuzundan qorumaq idi.

Xətai Səfəvilər dövlətinin nüfuzunu gücləndirmək məqsədi ilə sərhədlərini genişləndirirdi, Azərbaycanı, müasir İranın bütün, Türkiyənin, İraqın, Əfqanıstanın və Orta Asiyanın müəyyən hissələrini birləşdirməyə nail olmuşdu. Səfəvilər nəhəng, azman bir dövlət idi, böyük imperiya idi. Dünyada bir imperiya da Azərbaycanda yaradılmışdı.

Şah İsmayılın idarəçilik prinsiplərinə əsasən Azərbaycandan kənarda olan vilayətlərin rəhbərliyini də azərbaycanlılar təşkil edirdi. Dövlətin qoşunları azərbaycanlılardan təşkil olunmuşdu, səltənətin ictimai, siyasi, hərbi həyatını da azərbaycanlılar idarə edirdi.

Xətai də həm siyasi, həm də hərbi rəhbər idi.

Şah İsmayıl Xətainin düşüncəsinə görə əsl igidliyi şərtləndirən amillər sırasında başlıcası döyüşdür. İgidlik döyüşdə sınanılır. Maku yaxınlığında düşərgə salan Osmanlı ordusu üzərinə gecənin qaranlığında qəfil hücum etmək təklifinə Xətai etiraz edib: "Mən gecə vaxtı karvan basan quldur deyiləm". Səfəvilər Osmanlı ordusuna gecə hücum etsəydi bəlkə də Çaldıran döyüşündə qalib gələrdi...

Fiziki gücünə görə Şah İsmayıl bütün döyüşçülərdən fərqlənən sərkərdə idi. Tarixdə belə bir hadisə olub. Şah qılıncı ilə Osmanlıların toplarının zəncirini doğrayanda qılıncı topun lüləsini ikiyə bölür. Bunu Sultan Səlim də eşidibmiş. Sultan Səlim döyüşdən sonra Şah İsmayıldan həmin qılıncı istəyir. Şah qılıncını göndərir. Sultan əsabələrinin yanında qılıncla topa zərbə vurur. Qılınc topun lüləsini kəsmir. Sultan Səlim Şah İsmayıla məktub yazır ki, səndən Çaldıranda çaldığın qılıncı istəmişdim. Bu, həmin qılınc deyil. Şah İsmayıl Sultan Səlimə cavab olaraq yazır ki, "Qılınc həmin qılıncdır, qol həmin qol deyil!"

Tarixi mənbələrə əsaslanan tədqiqatlar Şah İsmayıl Xətainin hərbi əməliyyatlar aparılan ərazilərdə dinc əhalinin zərər çəkməsinə heç zaman imkan vermədiyini bildirirlər. Tarix onu da təsdiqləyir ki, bütün döyüşlərdə ordunun önündə gedən bu qüdrətli sərkərdə döyüşlərdə heç zaman yaralanmamışdı. O dövrdə qılınc döyüşü idi, bunu məharətlə bacardığına görə düşmənin qılınc çalanları onun qılıncının sərhədini heç zaman keçə bilməmişdi. Xətai belə sərkərdələrdən idi...

Tarix Şah İsmayıl Xətaini böyük sərkərdə kimi yaşadacaq...

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## MMU-nun nümayəndələri abituriyentlər ilə görüş keçiriblər





Dövlət İmtahan Mərkəzinin (DİM) elektron imtahanlar korpusunda təşkil olunan ali təhsil müəssisələrinin sərgisinin növbəti günündə Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin (MMU) nümayəndələri abituriyentlər, onların valideynləri və digər sərgi iştirakçıları ilə görüş keçiriblər.

Görüşdə MMU-nun təşviqat qrupu Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsi, hərbi kolleclərə, eləcə də hərbi liseylərə qəbul qaydaları, təhsil müəssisələrində mövcud ixtisaslar, keçid balları, tədris proqramları, güzəşt və imtiyazlar, xaricdə təhsil imkanları, qadın abituriyentlərin qəbul qaydaları və digər məsələlərlə bağlı maraq doğuran sualları cavablandırıblar.

Milli Müdafiə Universiteti xəbər verir ki, abituriyentləri ali təhsil müəssisələrinin mövcud imkanları ilə tanış etmək və onların ixtisas seçiminin müəyyən olunmasına dəstək göstərmək məqsədilə keçirilən sərgidə MMU-nun təqdim etdiyi təhsil imkanları qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.

## Haradan başlanır Vətən...

(Əvvəli 1-ci səhifədə)

…Yenə televizorda həmin film nümayiş etdirilir. Artıq qarşıda hədəfləri olan, həyata yeni qədəm qoymuş, bütün çətinliklərə sinə gərməyə hazır, ürəyi Vətən, ata-ana həsrəti ilə döyünən gənc qızam və "Haradan başlanır Vətən?" sualına cavab fərqlidir içimdə. Vətən mənim üçün Rusiyadan məni evimə, doğmalarıma çatdıran təyyarənin yerə enişindən sonra doğma Bakımda aldığım ilk nəfəsdən başlanırdı. Qapılar açılacaq, trap veriləcək, böyüdüyüm, hər şeyi - pisi də, yaxşısı da özümün olan torpağıma qədəm qoyacaq, aeroportun salonunda gözləyən, mənim könül dünyam olan atamla görüşəcəkdim. Bakımın mülayim havasını məmnuniyyətlə ciyərlərimə çəkərək, əyilib torpağımı öpmək keçəcək ürəyimdən. Hər dəfə Bakıya enişimdə bu hissləri keçirərdim - Vətən mənim üçün o zaman bu duyğulardan başlanırdı…

…Avtobus ağacların kölgəsi ilə nizamlanmış yollarla məni evimə, ocağıma aparır. Məşhur Şirvan körpüsü göründü - evimizə az qalıb. Keçmişimlə gələcəyimi, uşaqlığımla gəncliyimi birləşdirən bu körpüdən başlanırdı Vətən o zaman. İllər keçdi, zaman dəyişdi, biz də dəyişdik zaman kimi. Təhsilimi başa vurub bir neçə il Rusiyada işlədikdən sonra öz elimə-obama qayıtdım.

Həyat yolum artıq öz ölkəmdən başlanırdı, gənclik həyəcanı geridə qalmışdı, mən olğunlaşmış ömür yolunda addımlayırdım. İndi qəlbimdə Vətən həsrəti, torpaqlarımızın işğaldan azad olunması, yaralarımın qaysaqlanması ilə əvəzlənmişdi. Bir milyon qaçqını, minlərlə çox şəhidi olan, haqq səsini siyasi arenada qulağı tıxanmışlara çatdırmaqda böyük əngəllərlə üzləşən bir xalqın övladları idik çünki. Mən arxamda xoşbəxt Vətən qoyub getmişdim, qayıdanda sinəsi dağlı, qəribsəmiş, solmuş, torpaqlarında düşmənin at oynatdığı bir məmləkətlə qarşılaşmışdım. Çox ağır idi reallıq. İllərlə ekranlarda boy göstərən xarici qonaqlardan həqiqət gözlədik. Amma nə gördük, nə eşitdik. İnciyən ruhumuz sağalmalı, dirçəlməli, sabahlarımız üçün torpağın yaddaşı, milli-mənəviyyatımız təmizlənməli idi. Günlər əvəzlənir, hadisələr gündəmi dəyişir, xalqımızın səbri tükənirdi. Getdikcə azğınlaşan düşmən havadarlarının himayəsi ilə atəşkəsi tez-tez pozurdu. Ordumuz xalqımıza qalibiyyət duyğusunu davamlı yaşadırdı. 2016-cı ildə Aprel döyüşləri, 2018-ci ildə Günnüt əməliyyatı qələbəmizə inamı artırırdı. Nəhayət, sözün bitdiyi an gəlib çatdı. Bütün Azərbaycanı yasa boğan qəhrəman generalımız Polad Həşimovun şəhid olması. Heysiyyətin və vətənsevərliyin kükrədiyi həmin iyul gecəsi. Minlərlə qeyrətli, ürəyində Vətən eşqi daşıyan Azərbaycan oğlu öz etiraz səsini duyurmaq, şəhidlərimizin qisasını almaq, torpaqlarımızı azad etmək diləyi ilə küçələrə axışdı. Azərbaycanın dövlətçilik tarixinin addım səslərinin qüdrətli səsi idi o gecənin harayı. Camaat torpaqlarımızın həsrətini bu illər uzunu qəlbimizdə daşıdığımızı, özümüzünkü olana sahib çıxacağımızı bütün dünyaya sübut etdi. Boğazımda qəhər düyünlənmişdi, kirpiklərimdə yaş donmuşdu - baş verənləri həyəcanla izləyirdim. İlıq yay gecəsinin sükutunu pozan Qarabağın fəryadı, torpaqlarımızın qurtuluş harayının əks-sədası, şəhidlərimizin ruhu, boynubükük qalmış Xarı bülbülün çağırışı idi. O gecənin təntənəsi azərbaycançılığın bəşəri hiddətydi. Əlil arabasında var gücü ilə irəliləməyə çalışan qardaşım, ona böyük ehtiram hissi ilə onu müşayiət edən, sürətinə uyan qeyrətli oğullar... Bu, mənim Vətənimin dünyaya son xəbərdarlığı idi! Necə qürurlu, mətin idik o tarixi gün! Bilirdik, bu günün davamı gələcək!

27 sentyabr 2020-ci il! Azərbaycanın şanlı tarixinə qızıl hərflərlə yazılan, torpağın ruhunu oyadan o gün! Sevinclə kədərin üstələdiyi gün! Fərəh göz yaşları, şəhid acısının ruhumuza hakim kəsildiyi günlər… Hər yerdə vətənpərvərlik mahnıları səslənirdi. Vətən o mahnıların qanadlarında pərvazlanır, Xudayarın təsnifində ucalığına qovuşurdu: "Vətən yaxşıdır!" Torpaqlarımızı işğaldan azad edən igidlərin azadlıq manifesti idi bu təsnif! "Vətən, sənə canım fəda!" - deyib qanlı döyüşə getməzdən əvvəl ölümünü gözə alıb ailəsi ilə halallaşan əsgərin qürurundan, dövləti, ordusunu tək qoymayan, ətrafında yumruq kimi birləşən məğrur xalqımdan, yaşlılıq pensiyasını ordusuna bağışlayan Ələsgər dayımın dünya boyda ürəyindən, titrəyən əllərindən başlanırdı Vətən!

Savaşımız qələbə ilə başa çatdı. Tarix yazdığımızamı sevinək, şəhidlərimizin ağrısınamı yanaq - bilmədik. "Azadlıq ağacı şəhid qanıyla suvarılmadıqca bar verməz", - Xiyabani belə yazırdı. Acımızı qəlbimizə gömüb zəfərimizi qeyd elədik. Şəhidlərin ruhları sevinirdi. Artıq mən bayrağı ucalarda dalğalanan, ürəyi şəhidlərinin məzarında döyünən, ayaqda möhkəm dayanan bütöv Azərbaycanın qızı idim! Ordusu rəşadətli ordular sırasında yer alan, siyasi iradəsi ilə tarixin keşməkeşlərindən qoparıb inamla, ilhamla irəli aparan lideri - Ali Baş Komandanı olan Azərbaycanın qızı idim! Mənim üçün Vətən yarım qalmış, sərhədləri qanı ilə çəkmiş hüznlü nəğmələrimizin ünvanı - şəhidlərimizin məzarları idi varlığımı bunca titrədən! Başı göylərə dəyən bayrağımın altında Vətən yatırdı. Şəhidlər özləri Vətən olmuşdular bizim üçün. İnam yerim, and yerim, ucalığım - şəhid məzarı! Azərbaycan durduqca, sənin xatirən elə bu ucalıqda, bu uluuqda da yaşayacaq, şəhid qardaşım! Özün şəhid olmuşdun, ruhun döyüşənlərin sırasındaydı - işğaldan azad etdiyiniz torpaqlarımızı rəşadətli ordumuzun qalib hərbi qulluqçuları qoruyurlar! Onlar Azərbaycanın düməninə şahid, bu gününə sahib, sabahına dayaqdırlar! Onlar sizin açdığınız yolun yolçularıdırlar!

Əziz hərbi qulluqçularımız! Qarabağımızdan əsən küləklərin gətirdiyi Xudayarların, Aqşinlərin, Ziyadların, Orxanların, bütün şəhidlərimizin həyat nəğmələri sizlər üçün əbədi qələbə marşı kimi səslənir! Silahınız - ədalət, bayrağınız - inam olsun! Füsunkar Vətənin sərhədləri sizin sevginizdi, bu od, bu ocaq sizə əmanət!

**Sevinc QULİYEVA**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda gender perspektivləri: güclü orduya aparan yol



(Əvvəli 4-cü səhifədə)

Azərbaycan Respublikasının Müdafiə Nazirliyində fəaliyyət göstərən Şəhid ailələri və qadınlarla iş üzrə sektoru bu sahədə məqsədyönlü və planlı fəaliyyət göstərir. Bu sektorun əsas funksiyaları sırasında gender siyasətinin təşviqi, qadın hərbi qulluqçuların sosial müdafiəsi, onların hüquqlarının qorunması və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində çalışmaq dayanır. Sektor, həmçinin hərbçilərin ailələri ilə sosial və psixoloji dəstək yönümlü iş aparır. Ailələrin sosial rifahı, psixoloji sabitliyi və hüquqi maarifləndirilməsi Azərbaycan Ordusunun döyüşə hazırlıq səviyyəsinin qorunmasına və şəxsi heyətin ruhlandırılmasına birbaşa təsir göstərir. Sektorun təşkilatçılığı ilə qadın hərbi qulluqçular və mülki işçilər üçün "Gender bərabərliyi və qadın hüquqları" mövzusunda keçirilən təlimlər onların hüquqi və psixoloji biliklərini artırmaqla yanaşı, komandadaxili münasibətlərin sağlam qurulmasına da dəstək verir. Zabit heyətinin gender mövzusunda maarifləndirilməsi nəticəsində, qərarvermə proseslərində daha çevik və inklüziv yanaşmalar formalaşır.

- "Qadınların gücü - gender bərabərliyinə aparan yol" mövzusunda keçirilən tədbirdə qadın hərbi qulluqçuların hüquqları, sosial müdafiəsi və liderlik imkanları geniş müzakirə olunub.
- "Gender əsaslı zorakılıqla mübarizə" mövzusunda keçirilən təlimlərdə gender əsaslı zorakılığın qarşısının alınması, hüquqi mexanizmlər və qadınların müdafiə imkanları geniş şəkildə izah olunub.
- Qadın hərbi qulluqçuların ailələri ilə iş üzrə tədbirlər çərçivəsində sosial-psixoloji dəstək yönümlü layihələr icra edilir.

Gender bərabərliyinin ordumuzda tətbiqi və qeyd edilən istiqamətlərdə görülən tədbirlər Azərbaycan Ordusunun gücünü artırmağa dəstək olmaqla yanaşı, bir sıra mühüm töhfələr verir. Bunlardan:

- Operativ və balanslı qərarvermə - müxtəlif təcrübəyə malik şəxslərdən ibarət komandalar daha çevik və əsaslandırılmış qərarlar qəbul edə bilir;
- Beynəlxalq müdafiə strukturlarına inteqrasiya - NATO və BMT kimi qurumlarla əməkdaşlığın dərinləşdirilməsi üçün gender siyasətinin tətbiqi mühüm rol oynayır;
- İnsan resurslarından tam istifadə - cəmiyyətin yarısını təşkil edən qadınların hərbi sahədə potensialının reallaşdırılması strateji üstünlük yaradır.

Azərbaycan Ordusunda gender bərabərliyinin təmin olunması yalnız hüquqi prinsip deyil, həm də ordu strukturunun müasirləşdirilməsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi baxımından mühüm amildir. "Gender mainstreaming" yanaşmasının davamlı tətbiqi Azərbaycan Ordusunun qarşıya qoyulan milli və beynəlxalq vəzifələri uğurla yerinə yetirməsinə imkan yaradacaq.

Bu baxımdan, gender siyasətinin inkişaf etdirilməsi təkcə qadın hərbçilər üçün deyil, bütövlükdə Azərbaycan Respublikasının təhlükəsizlik sisteminin dayanıqlığı üçün strateji əhəmiyyət daşıyır. Bu yanaşma qadınların hüquqlarını təmin etməklə bərabər, həm də ordunun peşəkarlığını, döyüş qabiliyyətini və çevik qərarvermə imkanlarını artırmağa dəstək məqsədi daşıyır. Çoxşaxəli komanda strukturlarında qadınların iştirakı fərqli yanaşmaların sintezini təmin edir və daha effektiv qərarların qəbuluna səbəb olur.

Bütün bu tədbirlər göstərir ki, Azərbaycan Ordusu gender bərabərliyi sahəsində beynəlxalq tələblərə cavab verən, inkişaf yönümlü və inklüziv bir struktur olaraq formalaşır. Bu, həm ordu daxilində, həm də cəmiyyətin digər sahələrində gender balansına nail olunması baxımından önəmli nümunədir. Bundan əlavə, gender siyasəti beynəlxalq müdafiə strukturları ilə əməkdaşlığın güclənməsinə şərait yaradır. NATO və BMT kimi qurumlarla uyğunluq gender siyasətinin vacibliyini artırır və Azərbaycanın beynəlxalq imicinə müsbət təsir göstərir.

Azərbaycan Ordusunda gender bərabərliyinin təmin olunması sadəcə sosial ədalət deyil, həm də strateji inkişafın vacib tərkib hissəsidir. Qadın hərbi qulluqçuların və mülki işçilərin xidmət sahələrinin genişləndirilməsi, onların sosial müdafiəsi və ailələri ilə aparılan məqsədyönlü iş, müasir və peşəkar bir ordu modelinin formalaşdırılmasına müsbət töhfə verir.

**Sevinc QAFAROVA**
**Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi**

Görkəmli şəxsiyyətlər

# General-mayor Mirkazım bəy Talışxanov



***Mirkazım bəy Mirəlixan oğlu Talışxanov 1855-ci il iyulun 17-də Bakıda anadan olub. Atası Mirəlixan Talışxanov da hərbçi olub, orduda uzun illər xidmət etdikdən sonra "ştabs-kapitan" rütbəsində, hərbi geyimi daşımaqla və yüksək təqaüd təminatı ilə ordudan istefaya çıxıb. Mirkazım bəyin özündən kiçik qardaşları - Mirəsəd bəy Talışxanov, Xəlil bəy Talışxanov və Mirməmmədhəsən bəy Talışxanov da hərbçi olublar və hər üçü "general-mayor" rütbəsinə yüksəlib.***



İlk təhsilini Lənkəranın üçsinifli gimnaziyasında alan Mirkazım bəy sonradan ailəsi ilə birlikdə Bakıya köçüb, burada "Realnı" məktəbinin tam kursunu bitirib. Atasının hərbi sənətini davam etdirən Mirkazım bəy 1876-cı ildə Tiflisdə yerləşən ikinci dərəcəli Konstantin Yunkerlər Hərbi məktəbini bitirdikdən sonra 16-cı Qrenadyor Minqrel alayında xidmətə başlayıb. Cəmi birillik xidmətdən sonra ona "unter-zabit" rütbəsi verilib. 1877-ci ildə Rusiya-Türkiyə müharibəsi başlananda 16-cı Qrenadyor Minqrel alayında xidmət edən Mirkazım bəy Talışxanov döyüşən ordu sıralarında cəbhəyə gedib. Aleksandropol hərbi əməliyyat rayonunda göstərdiyi qəhrəmanlığa görə Mirkazım bəy Talışxanov tünd bürünc medalla təltif olunub. Xidmətdə fərqləndiyinə görə 1882-ci il iyunun 26-da "podporuçik", 1883-cü il martın 8-də isə ona "poruçik" rütbəsi verilib.

Orduda əla və qüsursuz xidmət edən Mirkazım bəy hərbi "pillələri" çox sürətlə keçib. 1882-ci ilə aid bir arxiv sənədində qeyd olunub ki, Mirkazım bəy əla atıcı olduğuna görə avqustun 26-da birinci dərəcəli atıcı kimi təltif edilib və 74 rubl pulla mükafatlandırılıb.

Tiflisdəki yunkerlər məktəbinə müəllim təyin olunan Mirkazım bəy Talışxanova 24 avqust 1886-cı ildə "ştabs-kapitan" rütbəsi verilib.

1884-1889-cu illərdə Tiflisdəki yunkerlər məktəbində yaradılmış məhkəmənin katibi olub. 1889-cu il avqustun 12-də həmin məktəbdə kvartirmeyster (kvartirmeyster - Rusiya ordusunda təchizat, daşınma, yerləşdirmə və digər təminat xidmətlərini həyata keçirən bir vəzifə) vəzifəsinə təyin edilib.

1891-ci ilin yanvarında ştabs-kapitan M.Talışxanov vaxtilə xidmət etdiyi Qrenadyor Minqrel alayına qaytarılıb və 13-cü bölüyün komandiri vəzifəsinə təsdiq edilib. Xidmətdə fərqləndiyinə görə o, 25 mart 1894-cü ildə "kapitan" rütbəsinə layiq görülüb.

Əla xidmətinə görə 1899-cu il fevralın 26-da ona "podpolkovnik" rütbəsi verilib və 119-cu Kolomnsk piyada alayına göndərilib. 1900-cü il mayın 15-də həmin alayın 1-ci batalyonunun komandiri təyin edilib.

Yüksək hərbi təcrübəyə malik podpolkovnik Mirkazım bəy Talışxanov xidmətində və səhra məşqlərində həmişə fərqləndiyinə görə onun xidmət yerini tez-tez dəyişiblər. Bacarıqlı və peşəkar komandir kimi onu "axsayan" bölük və taborlara komandir təyin ediblər.

Polkovnik Talışxanov 1901-ci ilin dekabrında öz xahişi ilə 82-ci Dağıstan piyada alayının 21-ci piyada diviziyasına göndərilib. 1902-ci il avqustun 6-da alayın 1-ci batalyonunun komandiri təyin edilib. 1903-cü ildə Qafqaz Hərbi Dairəsinin 270 nömrəli əmri ilə Hərbi Dairə məhkəməsinə üzv olub.

1904-cü ilin sentyabrında 206-cı Larqo-Katulski ehtiyat piyada alayının 3-cü batalyonunun, 1904-1906-cı illərdə isə 55-ci ehtiyat piyada batalyonunun, 1906-cı ildə 82-ci Dağıstan piyada alayının 1-ci taborunun, 1907-ci ildə 222-ci ehtiyat Şatski alayının xüsusi batalyonunun, 1909-cu ildə 250-ci Axulqinski ehtiyat batalyonunun, 1910-cu ildə isə 3-cü Sibir Atıcı Alayının 1-ci atıcı diviziyasının komandiri olub.

1915-ci ildə orduda uzun illər qüsursuz xidmətinə görə ali sərəncamla ona "general-mayor" rütbəsi verilib.

General-mayor Mirkazım xan Talışxanov 1916-cı ildə geyim forması və təqaüd hüququ saxlanılmaqla yaş məhdudiyyətinə görə ordudan tərxis edildikdən sonra Tiflisə qayıdaraq, ailəsi ilə birgə Velikoknyajeskay küçəsi (sonralar Dmitri Uznadze küçəsi adlanıb), ev 80 ünvanında yaşayıb.

1917-ci ilin dekabrın əvvəllərində Qafqaz Cəbhəsinin Qərargahı ayrı-ayrı hissələrin milliləşdirilməsini təklif edir. İlk növbədə, Yelizavetpolda yerləşən 219-cu ehtiyat piyada alayının əsasında Müsəlman Korpusu yaradılmalı idi. Zaqafqaziya Hərbi Komissarlığı bu təklifi dəstəkləyir və 1917-ci il dekabrın 18-də gürcü, erməni, müsəlman (Azərbaycan) və rus korpuslarının yaradılması haqqında fərman verir və gözlənildiyi kimi, Qafqaz cəbhəsini tərk edən rus ordusunu yeni yaradılan bu hissələr əvəz etməli idi. Qafqaz Cəbhəsi qoşunlarının baş komandanı general M.A.Prjevalskinin 11 dekabr 1917-ci il tarixli 155 nömrəli əmri ilə Müsəlman Korpusunun (komandiri general-leytenant Əlağa Şıxlinski) yaradılmasına başlanılır. Həmin vaxt Tiflisdə yaşayan, istefada olan general-mayor Mirkazım bəy Talışxanov eyni rütbə ilə yenidən hərbi xidmətə çağırılaraq Müsəlman Korpusunun formalaşmaqda olan 1-ci piyada diviziyasına (1918-ci il iyunun 26-dan Əlahiddə Azərbaycan Korpusuna) komandir təyin edilir.

O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920) Lənkəran qəzasının inspektoru vəzifəsində çalışıb.

Xidməti müddətində göstərdiyi şücaətlərə, əldə etdiyi nailiyyətlərə, yüksək komandirlik bacarıqlarına və əla xidmətinə görə bir çox orden və medallara layiq görülüb. Bunlardan "1877-1878-ci illər Rusiya-Türkiyə müharibəsinin xatirəsinə" medalını (1878), üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordenini (1889), üçüncü dərəcəli "Müqəddəs Anna" ordenini (1896), "İmperator III Aleksandrın hakimiyyətinin xatirəsinə" medalını (1896), ikinci dərəcəli "Müqəddəs Stanislav" ordenini (1904) qeyd etmək olar.

Topoqrafiya üzrə mütəxəssis general-mayor İbrahim ağa Vəkilovla yaxın dost olan Mirkazım bəy istefaya çıxandan sonra Tiflisdəki Qafqaz Müsəlman Xeyriyyə Cəmiyyətində onunla birgə fəaliyyət göstərib. Cəmiyyətin sədri İbrahim ağa Vəkilov, katibi isə Mirkazım bəy Talışxanov olub.

Sonralar bu səmimi dostluq qohumluğa çevrilib. İbrahim ağa Vəkilovun böyük oğlu Faris, Mirkazım bəy Talışxanovun qızı Liyabəyimlə ailə həyatı qurub.

Mirkazım bəy 1888-ci ildə Məsumə xanımla ailə qurub. Məsumə Yadigarova Zaqafqaziya Qadın Xeyriyyə Cəmiyyətinin üzvü olub. O, general-leytenant İsrafil bəy Yadigarovun qardaşı, Qafqaz canişinliyində 35 ildən çox xidmət etmiş Ağa bəy Yadigarovun qızı idi. Məsumə xanım 1923-cü ildə repressiyanın qurbanı olub.

Böyük qızı Sarabəyim xanım Talışinskaya (Xürrəmoviç) 7 fevral 1890-cı ildə anadan olub. Hacı Zeynalabdin Tağıyevin açdığı qızlar məktəbində oxuyub. O, inqilabdan əvvəl Kiyev Universitetinin hüquq fakültəsini bitirib. 1917-ci ildə Bakıda keçirilmiş Zaqafqaziya Müsəlmanları Qurultayının nümayəndəsi və çıxışçısı olub. 1976-cı ilin fevralında Bakıda vəfat edib.

1891-ci il fevralın 8-də anadan olan ikinci qızı Liyabəyim xanım Tiflis qadın gimnaziyasını qızıl medalla bitirib, Tiflis müsəlman məktəbində müəllim işləyib. General-mayor İbrahim ağa Vəkilovun oğlu Faris bəy Vəkilovun həyat yoldaşı olub. 1920-ci ildən sonra həyat yoldaşı Faris bəylə Fransada mühacirətdə yaşayıb. Vətənə qayıtdıqdan sonra Cəlil Məmmədquluzadə, Əbülhəsən, Mehdi Hüseyn, Mir Cəlal, Süleyman Rüstəm, Ənvər Məmmədxanlı, Süleyman Rəhimov və başqa yazıçıların əsərlərini rus dilinə tərcümə edib. 1943-cü ildə SSRİ Yazıçılar İttifaqının üzvü olub. Ədəbi ictimaiyyətdə və pedaqoji sahədə görkəmli mütəxəssis kimi tanınan Liyabəyim Vəkilova 1965-ci il fevralın 19-da Bakıda vəfat edib.

Üçüncü qızı Züleyxabəyim xanım 1892-ci il avqustun 3-də, oğlu Mirəlixan Talışxanov 1895-ci il sentyabrın 9-da anadan olub.

Görkəmli hərb xadimi general-mayor Mirkazım bəy Talışxanov 1938-ci ildə 84 yaşında Bakıda vəfat edib.

**"Azərbaycan Ordusu"**

Əsgər dostluğu

# Dostluq ən gözəl dayanacaqdı!..

Yeniyetməliyində atasından eşitdiyi bir kəlamı ata sevgisində də, həyat fəlsəfəsində də sədaqətlə yaşadıb: "Dünyanın ən gözəl, ən ürəyəyatımlı, cəmiyyət üçün ən gərəkli dayanacağı dostluq dayanacağıdı". Orta məktəbi də bu düşüncə ilə bitirdi, bu amalla çağırışçı yaşına çatdı, bu düşüncənin zəmanəti ilə hərbi xidmətə getdi. Əsgər Vəli Mustafayevin hərbi xidmətinin ilk səhəri bu düşüncələrlə açıldı.

Qazax rayonunun Qazaxbəyli kəndində anadan olan Vəli, boya-başa çatdığı kənddə orta təhsil alıb. Atası Abbasəli hərbçi olub, Birinci Qarabağ müharibəsinin, Vətən müharibəsinin, antiterror əməliyyatının iştirakçısıdır. Mayor hərbi rütbəsində bu döyüş əməliyyatlarının iştirakçısı kimi döyüşlərin zəfərlə tamamlanmasının cəfakeşi olub. Vəli atasının döyüş xatirələrini dərsliklərdən kənar tarix dərsləri kimi dinləyib. O illərdə mühəndis olmaq istəyib. Azərbaycan Memarlıq və İnşaat Universitetinə qəbul olub, təhsil müəssisəsini müvəffəqiyyətlə bitirib, indi müddətli həqiqi hərbi xidmətdədir. Tələbə olanda mühəndis olmaq niyyətiylə təhsil alan Vəli, zabit olmaq niyyətindədir.



Bu hərbi hissədə üç əsgər, bir dostluq dünyasının nəhayətsizliyində elə gözəl çulğalaşıb ki, bütövlüyü göz doydurur, könül açır.

Əsgər Aqil Tağıyev Ağdam rayonundandır. Ağdam adlı bir dünyaya sevgisi düşüncələrində atasının söhbətləri ilə formalaşıbdı. Əsgər Bəxtiyar Qurbanov Bakı şəhərindəndir.

Üç əsgər-üç dost. Üç dünya-Azərbaycan adlı bir dünyanın sevgi zərrələrindən biri. Asudə vaxtlarında nədən danışırlar? Hərbi xidmətdən, Vətəndən, Vətənə sevginin nəhayətsizliyindən, ordumuzun qüdrətindən, işğaldan azad edilmiş ərazilərimizdə aparılan quruculuq işlərindən və bir də dünyanın ən gözəl dayanacağı olan dostluqdan. Söz-sözə söykək olur, söz-sözü çəkir. Hərbi hissədə hər üç əsgərin nümunəvi xidmət etdiyini dedilər. Vəli də, Bəxtiyar da deyirlər ki, Vəlinin könlündən, Bəxtiyarın könlündən Aqilin könlünə ruh yolu varsa, Qazaxdan Bakıya, Bakıdan Ağdama ruh yolu var. Ağdam da bizimdi, Aqil. Ağdam dostluğumuzun şəhəri biçimində gözəlləşəcək!

Mənə elə gəldi ki, gözəl dostluq hərbi xidməti də gözəlləşdirir.

Əsgərlər mənəvi dünyanı dostluq dünyasının dan ulduzu adlandırırlar. "Bu dostluğun işığı heç zaman azalmayacaq" (əsgər Vəli Mustafayev), "Mənə elə gəlir ki, əsgər dostluğu ömür yolunun başlanğıcıdı" (əsgər Aqil Tağıyev), "Biz varıq, biz sənə layiq əsgərlərik, sənə layiq əsgər dostluğumuz var, Vətən!" (əsgər Bəxtiyar Qurbanov) - gözəl duyğular haqqında gözəl düşüncələrdir.

Əsgərlərin əsgər dostluğunu ən gözəl dayanacaq adlandırır, Vətən!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

# Kosmos haqqında maraqlı faktlar



- Günəş bir dəqiqə ərzində Yerin bir il ərzində sərf etdiyi bütün enerjidən çox enerji istehsal edir.
- Günəş sisteminin bütün planetləri Yupiter planetinin içərisinə yerləşə bilər.
- Pluton planetində bir ilin uzunluğu Yerdəki 247,7 il qədərdir.
- Günəş enerjisinin 19 faizi atmosferdə udulur, 47 faizi Yerə düşür, 34 faizi isə kosmosa qayıdır. Tam Günəş tutulması 7,5 dəqiqədən çox çəkmir.
- Ay tutulması 104 dəqiqə davam edir.
- Bizə ən yaxın olan (Günəşdən sonra) Proksima Sentavr ulduzuna çatmaq üçün orta hesabla saatda 60 kilometr sürətlə hərəkət edən avtomobilə təxminən 48 milyon il vaxt lazımdır. Proksima Sentavradək məsafə 4,24 işıq ilidir.
- Marsdakı Niks Olimpik vulkanının hündürlüyü 20 kilometrdən çoxdur. Marsdakı dağların hündürlüyü 20-21 kilometrə çatır.
- Biz ən uzaq görünən ulduza baxarkən 4 milyard il keçmişə baxırıq. Ondan gələn və saniyədə, demək olar, 300 000 kilometr sürətlə hərəkət edən işıq bizə yalnız uzun illərdən sonra çatır.
- Uran planeti Yerdən adi gözlə görünür.
- İlk ulduz kataloqu e.ə. 150-ci ildə Gipparx tərəfindən tərtib edilib.
- Qalaktikamızda hər il qırxa yaxın yeni ulduz meydana çıxır. "Habll" kosmik teleskopu tərəfindən şəkli çəkilən ən qocaman qalaktikanın yaşı 12 milyard ildir.
- Kainatın ən qaynar ulduzu Veneradır.
- Merkuri planetində gün bir ildən iki dəfə uzundur. O, öz oxu ətrafında çox yavaş fırlanır.
- Merkurinin Günəş ətrafında bir dəfə dövr etməsi isə 88 gün çəkir.
- Yerin çəkisi təxminən 600 trilyon tondur. Ay Yerdən 80 dəfə yüngüldür. Hər sutka Yerə təxminən 200 min meteorit düşür. Yerə hər gün 27 tona yaxın, il ərzində isə 10 min tondan artıq kosmik toz düşür. Son 500 il ərzində Yerin çəkisi kosmik maddələrin hesabına bir milyard ton artıb.
- Əgər Yer öz oxu ətrafında əksinə dövr etsəydi, o zaman ildə iki sutka az olardı.
- Ayın ilk xəritəsini 1609-cu ildə Tomas Harriton hazırlayıb.
- Ayda ən yüksək temperatur 117 dərəcə Selsidir.
- Aydakı ən yüksək dağın hündürlüyü 11500 metr təşkil edir.
- 1995-ci ildə Kosmosda yetişdirilən ilk tərəvəz kartof olub.



- Astronavtlar kosmosa getdikdən sonra tez-tez dırnaqlarını itirirlər.
- Bütün insanların Yer üzündə olduğu son gün 2 noyabr 2000-ci il idi. O vaxtdan bəri həmişə kimsə kosmosdadır.
- 1960-cı illərdə amerikalılar kosmosda yazan qələm yaratmaq üçün təxminən 1 milyon dollar xərcləyiblər.
- Sovet kosmonavtları karandaşdan istifadə edirdilər.
- Kosmosda ağlamaq fiziki olaraq mümkün deyil.
- Yerin cazibə qüvvəsi insan onurğasını sıxır, ona görə də kosmonavt kosmosa daxil olanda o, təxminən 5,08 sm böyüyür.

**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



## Türkiyənin beşinci nəsil KAAN qırıcılarının ilk partiyasının təhvil verilmə tarixi açıqlanıb

Türkiyə istehsalı olan beşinci nəsil KAAN qırıcı təyyarələrinin ilk nümunələri sifarişçilərə 2028-ci ilin sonu - 2029-cu ilin əvvəlində təhvil veriləcək.

Bu barədə jurnalistlərə TUSAŞ aerokosmik şirkətinin baş direktoru Mehmet Demiroğlu məlumat verib.

Onun sözlərinə görə, hazırda bir neçə hərbi təyyarə prototipinin sınaqları davam edir və ilk üç KAAN təyyarəsi Türkiyə Hərbi Hava Qüvvələrinin komandanlığına təqdim olunacaq.

TUSAŞ-ın baş direktoru KAAN təyyarəsini "Türkiyənin qüruru" adlandırıb.

Türkiyənin beşinci nəsil təyyarəsinin ilk uçuşu ötən il həyata keçirilib. Bu ilin iyun ayında isə İndoneziyaya 48 ədəd KAAN təyyarəsinin tədarükü üzrə müqavilə imzalandığı məlum olub. Razılaşma 2025-ci ildə Cakartada keçirilən "INDO Defence" müdafiə sərgisi çərçivəsində əldə olunub.

## Çin super güclü lazer silahları üçün ən böyük BGSe kristalı yaradıb



Çin alimləri lazer istehsalı üçün istifadə edilən BGSe (barium selenoqalat) adlı dünyanın ən böyük kristalını yaradıblar.

"South China Morning Post" nəşri xəbər verir ki, bu, Yer orbitində peykləri vura bilən super güclü lazer silahının yaradılmasına imkan verir. Məlumata görə, istehsal texnologiyası Çin Elmlər Akademiyasının Hayfey Fizika Elmləri İnstitutunda hazırlanıb. Diametri 60 millimetr olan sintetik kristal qısa dalğalı infraqırmızı şüaları effektiv şəkildə orta və uzaq infraqırmızı şüalara çevirir.

Qəzet onun yaradıcıları qrupunun rəhbəri, professor Vu Haysindən sitat gətirir: "Bu kristal indiyədək dünyada qeydə alınan ən böyük nümunədir".

Nəşr qeyd edir ki, kristalın hər kvadrat santimetrə 550 meqavata qədər lazer şüalanma gücünə tab gətirə bilməsi xüsusilə vacibdir ki, bu da mövcud hərbi dərəcəli kristalları zədələnmə həddindən yüksək miqyasdadır.

Çinli ekspertlər hesab edirlər ki, bu cür kristallardan tibbi diaqnostika avadanlığında, raketlərin izlənilməsində, habelə təyyarələrin identifikasiya edilməsində ultra həssas infraqırmızı sistemlər yaratmaq üçün də istifadə etmək olar.

## Türkiyənin üçüncü vətəndaşı kosmosa uçacaq



Türkiyənin "Erdem" Holdinqinin İdarə Heyətinin üzvü Gökhan Erdem ölkənin kosmosa uçan üçüncü vətəndaşı olacaq.

Müxtəlif ölkələrin, o cümlədən Türkiyənin nümayəndələrinin iştirak edəcəyi "Blue Origin" şirkətinə məxsus kosmik aparatın uçuşu avqustun 3-ü ABŞ-ın Texas ştatındakı Van Horn poliqonundan planlaşdırılır.

"Blue Origin" şirkətinin 14-cü suborbital missiyasının iştirakçıları Yer atmosferi ilə kosmos arasındakı şərti sərhəd hesab olunan Karman xəttini keçəcəklər. Missiyanın emblemində heyət üzvlərinin hər birini təmsil edən simvollar yer alıb. Məsələn, Bosfor boğazı Gökhan Erdemin Türkiyəyə mənsubluğunu simvolizə edir.

Qeyd edək ki, daha əvvəl Türkiyənin Milli Kosmik Proqramı çərçivəsində Alper Gezeravcı və Tuva Cihangir Atasevər kosmosa uçuş həyata keçiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman




## Azərbaycan güləşçisi dünya çempionu olub

Yunanıstanın paytaxtı Afinada U-17 dünya çempionatı davam edir.

Üçüncü yarış günündə yunan-Roma güləşi üzrə mübarizəyə yekun vurulub.

Azərbaycan komandası mundialda 1 dəst medal qazanıb.

Abdurrahman Hüseynli (45 kiloqram) ukraynalı Timur Məhərrəmova tam üstünlüklə (9:0) qalib gələrək bürünc medal qazanıb.

Hikmət Haqverdiyev (51 kiloqram) finalda özbəkistanlı Otabek Tursunova 1:4 hesabı ilə məğlub olub və gümüş medalı boynundan asıb.

Əli Nəzərov (60 kiloqram) həlledici görüşdə qırğızıstanlı Amangəldi Ysakbayevə heç bir şans verməyib. Rəqibini 6:1 hesabı ilə üstələyən həmyerlimiz dünya çempionu olub.

DÇ-də 1 qızıl, 1 gümüş və 1 bürünc medal qazanan millimiz 100 xal toplayaraq, komanda hesabında Qırğızıstanla 4-5-ci yerləri bölüşüb.

## Azərbaycanın ağırlıqqaldırma komandası Avropa birinciliyində 3-cü olub



İspaniyanın paytaxtı Madrid şəhərində keçirilmiş U-15 və yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyi başa çatıb.

Qitə miqyaslı yarışda mübarizə aparan 15 yaşadək atletlərdən ibarət komanda üçüncü yeri tutub.

Musab Məmmədtağıyev, Lətif Əliyev və Muhəmmədəli Məmmədzadənin qazandığı 3 qızıl və 4 gümüş medal sayəsində Azərbaycan komandası İspaniya, Polşa və Bolqarıstan kimi kollektivləri qabaqlayıb.



## Azərbaycan güləşçiləri bu il Avropa çempionatlarında 73 medal qazanıblar

Azərbaycan güləşçiləri bu il keçirilən Avropa çempionatlarında yüksək nəticələrə imza atıblar.

Onlar müxtəlif yaş qrupları üzrə qitə çempionatlarında ümumilikdə 73 medal qazanıblar.

Həmin yarışlarda 22 dəfə Azərbaycan Himni səsləndirilib. 21 güləşçimiz gümüş, 30-u isə bürünc mükafata sahib çıxıb.

Sərbəst güləşçilər Avropa çempionatlarında 8 qızıl, 12 gümüş və 13 bürünc medal qazanıblar. Yunan-Roma güləşində təmsilçilərimiz 8 dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb, 8 dəfə ikinci, 11 dəfə isə üçüncü yerlə kifayətləniblər. Qadın güləşçilər 4 qızıl, 1 gümüş və 5 bürünc medalla yadda qalıblar. Çimərlik güləşində isə 2 qızıl və 1 bürünc mükafat əldə olunub.

**AZƏRTAC-ın materialları əsasında**

Təhməzov İsfəndiyar Fərhad oğluna verilmiş MV № 015167 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Şəlalə DÜNYAMALIYEVA

Lisenziya № 361
Sifariş № 402
Nüsxə 3630